Ədəbiyyat QƏZETİ

20 noyabr / 2021

# Tarixə möhtac olmayan Söz

*Professor Nizaməddin Şəmsizadənin "Orta əsrlər Azərbaycan ədəbiyyatı" monoqrafiyası üzərinə*




Görkəmli ədəbiyyatşünas alim, Dövlət mükafatı laureatı Nizaməddin Şəmsizadə yaxın günlərdə nəşr etdirdiyi "Orta əsrlər Azərbaycan ədəbiyyatı" kitabını, özünün də qeyd etdiyi kimi, "yerlə göy arasındakı sərhədsiz məkanın sahibi olan Türk bədii təfəkkürünün keçmişinə ehtiram, gələcəyinə inamla" yazıb. Sözü yaradanlara, sözü yaşadanlara, sözlə yaşayanlara ithaf edib. Annatosiyada haqlı olaraq vurğulanır ki, bu monoqrafiya ənənəvi "ədəbiyyat tarixi" deyil, ədəbiyyatımızın tarixdən asılı olmayan bədii-fəlsəfi təkamülünü əks etdirən nəzəri araşdırmadır. "Müəllif materialist konsepsiyadan fərqli ədəbiyyat və sənətin özünəməxsus təkamülünü açmağa çalışır və belə nəticəyə gəlir ki, bədii ədəbiyyat tarixdən daha mənalı, zəngin və güclüdür, o, tarixə yol açır, onu təsdiq edir və prioritetlərini müəyyənləşdirir".

N.Şəmsizadə özünəməxsus səmimiyyətlə vurğulayır ki, ərəblər islamı yaratdı, türklərsə onu yaşatdı, onu təkcə din kimi yox, zəngin elm mənbəyi kimi mənimsədi. "Böyük Çöl" mədəniyyəti türk mənəviyyatının, türk demokratizminin ifadəsinə çevrildi, bu kontekstdə böyük məmləkətlər türk ədaləti ilə idarə olunmağa başladı. Bu yaşam türkləri sərhədsiz düşüncə, kəşflər aləminə götürdü. Tədqiqatçı haqlıdır ki, Söz xalqın tarixini əks etdirir, lakin Söz tarixə möhtac deyil. "Söz tarixi kontekstdə öz məramını daha da genişləndirir... Ədəbiyyat tarixə endikcə güclü olur". Eyni zamanda da əksinə, tarix ədəbiyyatda ifadə olunduqca heyrətləndirir, əbədiyyət ömrü qazanır.

Çoxsaylı, mötəbər mənbələrə istinadən qələmə alınan monoqrafiya öz işinə böyük əmək sərf etmiş alimin gərgin və diqqətəlayiq zəhmətinin sayəsində araya-ərsəyə gəlib. Türk bədii təfəkkürünün yaradıcılıq imkanlarını, ədəbiyyatımızın ümumtürk qaynaqlarını dərin bələdçiliklə incələyən monoqrafiyada anadilli şeirimizin ilk nümayəndəsi Zübeydə Xatunun, ana dilimizdə ilk divan bağlayan Qazi Bürhanəddinin, ustad sənətkarlarımız Füzulinin, Xətainin, Molla Pənah Vaqifin və b. yaradıcılıqlarına xas olan cəhətlər sonsuz ehtiramla araşdırılır.

Professor Rəhim Əliyevin redaktorluğu, filologiya üzrə fəlsəfə doktoru Azər Turanın rəyçiliyi ilə nəşr olunan "Orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi" monoqrafiyası Nizaməddin Şəmsizadənin ümumtürk mədəniyyətinə, ədəbi-bədii qaynaqlarımızın qudsallığına dərin vətəndaş sevgisi ilə qələmə alınıb.

*Sərvaz*